Dövlət müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir! 25

İşıqlı gələcəyin təminatçısı

Müstəqil Azərbaycanın uğurlu yoluna nur saçan "Azərişıq" ASC üzərinə düşən vəzifəni layiqincə doğruldur

Dövlət müstəqilliyinin bərpasının 25 illiyini qeyd edən Odlar yurdu bu gün dünya birliyində tutduğu mövqeyə, əldə etdiyi böyük uğurlara görə hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib. Əsrlər boyu müstəqillik arzusu ilə yaşamış xalqımız ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, hər bir xalqın milli varlığının mahiyyətini təşkil edən amilləri - dilini, milli-mənəvi dəyərlərini və mədəniyyətini göz bəbəyi kimi qoruyub saxlamaqla yanaşı, dünya mədəniyyəti xəzinəsinə də misilsiz töhfələr vermişdir. Dövlət müstəqilliyimizin bərpası azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək beynəlxalq hüququn subyektinə çevrilmək və demokratik, hüquqi, dünyəvi dövlət qurmaq imkanı yaratmışdır.

Ötən 25 il ərzində Azərbaycan xalqı dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlərini gerçəkləşdirərək bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə fəxr edir. Çünki Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə, yaradıcı potensialına, vətənpərvərliyinə və qurub-yaratmaq əzminə arxalanaraq, 25 il ərzində suveren dövlət çərçivəsində misilsiz inkişaf yolu keçmişdir. Hər kəsə bəllidir ki, xalqın istək və tələbi ilə ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkənin məhv olma təhlükəsinə, separatçılıq meyillərinə, başlanan vətəndaş müharibəsinə son qoyulmuş, dövlətlə xalqın birliyi təmin edilmişdir. İctimai-siyasi sabitliyin bərqərar olması, hərbi əməliyyatların dayandırılması və "Əsrin müqaviləsi"nin imzalanması bütün sahələrdə genişmiqyaslı islahatların başlanmasına zəmin yaratmışdır.

Azərbaycan müstəqil dövlətçilik tarixi baxımından qısa bir müddətdə qədim tarixindən, mədəniyyətindən və ənənələrindən güc alaraq bütün sahələrdə gözqamaşdırıcı uğurlara nail olub. Gündən-günə daha da inkişaf edən və bölgədə olduğu kimi, qlobal miqyasda da önəmli bir ölkə mövqeyinə yüksələn Azərbaycanın bu uğurlarını hər kəs etiraf edir.

Prezident İlham Əliyevin müasir tarixi şəraitə uyğun olaraq, yaradıcılıqla davam etdirdiyi məqsədyönlü və çevik sosial- iqtisadi islahatlar ölkəmizdə köklü dəyişikliklərə səbəb olmuşdur. Həyatımızın bütün sahələrini əhatə edən quruculuq və abadlıq işləri respublikamızın hər yerində güclü inkişafa şərait yaratmış, Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmış, bölgədə lider dövlətə çevirmişdir. Respublikamızda həyata keçirilən effektiv iqtisadi islahatlar kursu uğurla davam etdirilərək dövrün tələblərinə uyğun ardıcıl və sistemli şəkildə yerinə yetirilir. Ölkədə həyata keçirilən islahatlar elektrik təchizatı ilə bağlı müasir infrastrukturun yaradılması istiqamətində də mühüm nailiyyətlərin əldə olunması üçün əlverişli şərait yaradıb. Azərbaycanın müstəqil enerji infrastrukturunun formalaşdırılması, xaricdən enerji asılılığının aradan qaldırılması istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Hökumətin elektroenergetika sektoruna diqqəti Azərbaycan Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasının yanacaq - enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı"nda, "Azərbaycan Respublikası regionlarının 2009-2013 - cü illərdə sosial - iqtisadi inkişafı proqramı"nda və "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nda öz ifadəsini tapmışdır. Dövlət başçısının respublikamızda elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncamında da bu sahədə həyata keçiriləcək möhtəşəm quruculuq işləri, təxirəsalınmaz vəzifələr əks olunmuşdur. Məlum qərarlardan irəli gələn vəzifələr hazırda yüksək səviyyədə yerinə yetirilir.

Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 29 dekabr tarixli

fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında göstərilir ki, ölkədə aparılan genişmiqyaslı islahatların daha da dərinləşdirilməsi, cəmiyyətimizin daha yüksək sosial-iqtisadi inkişaf pilləsinə yüksəlməsinə şərait yaratmışdır. Ölkədə investisiya mühitinin yaxşılaşdırılmasında mühüm addımlar atılmış, dövlət idarəçiliyi müasir meyarlara uyğun qurulmuşdur. Həyata keçirilən iqtisadi siyasət nəticəsində ölkənin enerji təhlükəsizliyi təmin edilmişdir. Dövlət başçısının 10 avqust 2006-cı il tarixli sərəncamı ilə "Bakıelektrikşəbəkə"ASC-nin fəaliyyəti bərpa edilməklə elektrik paylayıcı şəbəkələrdə islahatlara start verilmişdir. 2015-ci ildə isə "Bakıelektrikşəbəkə"ASC-nin adı dəyişdirilərək "Azərişıq"ASC adlandırılmaqla ölkə ərazisində (Naxçıvan Muxtar Respublikası istisna olmaqla) istehlakçıların etibarlı, təhlükəsiz və səmərəli şəkildə elektrik enerjisi ilə təchizatının həyata keçirilməsi "Azərişıq"ASC-yə həvalə edilmişdir. Həyata keçirilən yeni islahatlar, müasir texniki avadanlıqların alınması və ölkənin elektrik enerjisi ilə tam təminatı böyük uğurlara yol açmışdır. Təkcə Bakı şəhəri üzrə elektrik şəbəkəsinin qoyuluş gücü 2006-cı ildəki 3 048 MVA-dan 2016-cı ilə 6 200 MVA-ya qaldırılmışdır. Respublika üzrə elektrik şəbəkələrinin qoyuluş gücü "Azərişıq"ASC yarandığı 2015-ci ilin əvvəlinə 9,500 MVA-dan 2016-ci ilin birinci yarımilliyinə 11,111 MVA-ya qaldırılıb və ilin sonuna 12, 561 MVA təşkil edəcək.

Regionun lider dövlətinə çevrilən Azərbaycanın sürətli inkişafı respublikanın paylayıcı elektrik şəbəkələrinin yenidən qurulmasını vacib edir. Paylayıcı elektrik şəbəkələri elektroenergetika sisteminin əsas hissəsi olmaqla, sistemin effektiv iş rejiminə və texniki-iqtisadi göstəricilərinə öz böyük təsirini göstərir. Bu səbəbdən elektroenergetika sistemində investisiya qoyuluşları tez bir zamanda paylanma sektoruna yönəldilir. Paylayıcı şəbəkələrin yenilənməsi və gücləndirilməsi prioritet qəbul edilir. Bu halda elektrik enerjisi itkilərinin azaldması ilə nəticələnməklə birbaşa iqtisadi faydalar əldə olunacaq.

Prezident İlham Əliyev tərəfindən respublikamızda aparılan quruculuq işləri, o cümlədən Bakı şəhərində həyata keçirilən meqa layihələr şəhər elektrik şəbəkəsinin də qarşısında ciddi tələblər qoymuşdur. Görülən işlər nəticəsində yeni şəbəkə infrastrukturu yaradılmış, istehlakçıların elektrik enerjisi ilə təchizatında dayanıqlıq və fasiləsizlik təmin edilmişdir. Həyata keçirilən layihələrdən ən önəmlisi ölkə energetiklərinin hər zaman arzusunda olduqları 110 kV-luq dairəvi elektrik təchizatı sisteminin reallaşdırılması olmuşdur. Bununla da istehlakçıların fasiləsiz, dayanıqlı şəkildə elektrik enerjisi ilə təchizatı yüksək səviyyədə təmin edilmişdir. Energetika sektoru neft və qaz sektorları ilə birgə Azərbaycanın sosial və iqtisadi inkişafında aparıcı rol oynayır və sürətli ikişaf nəticəsində ölkə daxilində elektrik enerjisi istehsalının 2015-2025-ci illər ərzində illik 3 faiz ətrafında artacağı gözlənilir.

Bakı şəhəri kimi iri meqapolislərin elektrik təchizatı 220 və 110 kV-luq dairəvi sxem üzrə yerinə yetirilir. Bu sxem üzrə şəhərin elektrik təchizatının dayanıqlığının və etibarlığının təmin olunması üçün Bakı şəhərində ilk dəfə olaraq 110 kV-luq dairəvi elektrik təchizat sxeminin yaradılmasında məqsəd 220 kV-luq yarımstansiyalardan 110 kV-luq elektrik şəbəkələri vasitəsi ilə şəhərin müxtəlif nöqtələrinə ötürülməsi, hər hansı bir mənbədən elektrik təchizatında fasilələr yaranarsa avtomatın ehtiyat qoşulması vasitəsi ilə digər mənbədən istehlakçıların elektrik enerjisi ilə təmin olunması, şəhərdə elektrik enerjisinə artan tələbatın ödənilməsidir. Bakı şəhərinin 2025-ci ilə qədər elektrik enerjisinə olan tələbatı hesablamalara görə 1500 MWt-a qədər artacağını nəzərə alaraq şəhərin bir neçə yerlərində yeni generasiya mənbələrinin və yeni şəbəkələrin yaradılmasına zərurət vardır.

Bu gün şəbəkənin aktivində 114 ədəd 110 kV-luq yarımstansiya fəaliyyət göstərir. 34 ədəd yarımstansiya dövlət proqramı əsasında yenidən tikilmişdir. Mövcud 110 kV-luq yarımstansiyaların 70,1 faizi, yəni, 80 ədəd yarımstansiyanın yenidən qurulmasına və daha güclü avadanlıqlarla təchiz edilərək təmir olunmasına ehtiyac var. Perspektivdə əlavə 44 ədəd 110-kV-luq yarımstansiyanın inşası və 878 km 110 kV-luq EVX-nin tikintisi nəzərdə tutulmuşdur. 35 kV-luq yarımstansiyaların mövcud sayı isə 559 ədəddir. Bunlardan 111 ədəd yarımstansiya dövlət proqramı əsasında yenidən qurulub. Mövcud 35 kV-luq yarımstansiyaların 80,1 faizi, yəni, 448 ədəd yarımstansiya istismara yararsız olduğu üçün yenidən qurulmasına ehtiyac var. Əlavə olaraq 104 ədəd 35-kV-luq yarımstansiyanın inşası və 3927 km yeni EVX-nin tikintisi nəzərdə tutulmuşdur.

Hazırda "Azərişıq" ASC-nin Bakı şəhəri üzrə aktivində 33 ədəd 110 kV-luq yarımstansiya fəaliyyət göstərir. Bunlardan 24 ədədi yeni tikilib, beynəlxalq standartlara uyğundur. Qalan 9 yarımstansiyanın isə 50 ilə yaxın istismarda olduğunu və ifrat yükləndiyini nəzərə alaraq yenidən qurulmasına və daha güclü avadanlıqlarla təchiz edilərək təmir olunmasına ehtiyac var. Bundan əlavə, Bakı şəhərinin sürətli və hər bir sahə üzrə inkişafını nəzərə alaraq artan gücləri qarşılamaq üçün Bakı şəhərinin inkişaf planına uyğun daha 21 ədəd yeni yarımstansiyanın və əlavə 278 km uzunluğunda 110 kV-luq EVX-lərin tikintisi nəzərdə tutulmuşdur. 110 kV-luq elektrik ötürücü xəttlərinin ümumi uzunluğu 500 km-dən artıqdır. Bunlardan 350 km-i (70 faizi) yenilənib, 206 km-dən çox kabel xətləri çəkilmişdir. Ötürücü xətlərin 40 faizi 50 ildən çox istismardadır və yenidən qurulmasına ciddi ehtiyac vardır.

Bununla yanaşı, qurumun Bakı şəhəri üzrə paylayıcı şəbəkələrin balansında 142 ədəd 35-20 kV-luq yarımstansiyaları mövcuddur. Bunlardan 69 yarımstansiya yenidən qurulub. Yarımstansiyaların təxminən 73 ədədi keçən əsrin 40-50-ci illərindən istismardadır. Güc artımını nəzərə alaraq daha 31 ədəd 35 kV-luq yeni yarımstansiya tikilməlidir.

Respublikanın regionlarında isə şəbəkənin aktivində 83 ədəd 110 kV-luq yarımstansiya fəaliyyət göstərir. 10 ədəd yarımstansiya dövlət proqramı əsasında yenidən tikilmişdir. "Azərişıq" ASC tərəfindən 2 ədəd 110 kV-luq yarımstansiya inşa olunub. Mövcud 71 ədəd yarımstansiyanın yenidən qurulmasına və daha güclü avadanlıqlarla təchiz edilərək təmir olunmasına ehtiyac var. Perspektivdə əlavə 23 ədəd 110-kV-luq yarımstansiyanın inşası və 600 km 110 kV-luq EVX-nin tikintisi nəzərdə tutulub.



"Azərişıq" ASC-nin Paylayıcı Elektrik Şəbəkələrinin yenidən qurulması (2016-2025-ci illər) ilə bağlı master-planı da mövcuddur. Master-planda paylayıcı elektrik şəbəkələrində perspektiv və mövcud yükləri nəzərə almaqla (regionlarda yalnız mövcud elektrik şəbəkələrinin yenidən qurulması nəzərə alınmışdır) 101 ədəd 110 kV-luq, 469 ədəd 35 kV-luq yarımstansiyaların yenidən qurulması və inşası, müxtəlif gücdə 21836 ədəd TM və KTM-nin quraşdırılması, ümumi uzunluğu 83595 km təşkil edən 110;35;10;6 və 0,4 kV-luq elektrik verilişi xətlərinin, transformator təmiri sexlərinin və inzibati binaların tikintisi, SCADA sisteminin, eləcə də İKT-nin tətbiqi və maşın mexanizmlərinin alınması öz əksini tapmışdır. Bununla əlaqədar master-planın tətbiq edilməsi və yerinə yetirilməsi 10 il ərzində planlaşdırılır.

Master-planda nəzərdə tutulmuş proqram uzun illər fəaliyyət göstərən enerji paylama şəbəkəsinin bərpası və genişləndirilməsi ilə Azərbaycanda enerji paylama subsektorunun enerji səmərəliliyinin təkmilləşdirilməsi məqsədi daşıyır. Bu proqram regionlarda elektrik təchizatının etibarlılığını artıracaq, paylama sistemində mövcud olan elektrik enerjisi itkilərini azaldacaq, istehlakçılara göstərilən xidmətlərin səmərəliliyi və keyfiyyətini artıracaq, regional paylama şirkətlərinin əməliyyat və maliyyə perfomansını təkmilləşdirəcək və paylama subsektorunda korpotativ islahatlar və kadr potensialının gücləndirilməsini dəstəkləyəcək. Master-planda nəzərdə tutulmuş proqrama elektrik təchizatının dayanıqlığının və etibarlığının artırılması, elektrik enerjisinin paylanmasında texnoloji itkilərin azaldılması məqsədi ilə paylayıcı elektrik şəbəkələrinin yenidən qurulması, yeni güc mənbələrinin tikintisi, elektrik veriliş, xətlərinin yenilənməsi daxildir. Bununla əlaqədar master-planın tətbiq edilməsi və yerinə yetirilməsi 10 il ərzində planlaşdırılır ki, bu məqsədlə hər hansı beynəlxalq təşkilat tərəfindən işlərin görülməsinə maliyyə köməyinin göstərilməsini mümkün edir. "Azərişıq" ASC tərəfdən hazırlanmış respublika rayonlarının paylayıcı elektrik şəbəkələrinin yenidənqurma proqramında texniki tədbirlərin görülməsi üçün 7,754 mlrd manat vəsaitin tələb olunduğu müəyyənləşdirilmişdir. İlk mərhələdə şəbəkələrin yenidən qurulmasına maliyyə vəsaitinin ayırılması məqsədi ilə Asiya İnkişaf Bankı tərəfindən 1 mlrd dollar, Dünya Bankı tərəfindən 240 mln dollar vəsaitin ayrılması nəzərdə tutulub.

Azərbaycanın sosial-iqtisadi inkişafı həyatımızın bütün sahələrində, o cümlədən elektroenergetika sisteminin inkişafında öz əksini tapmışdır. Ölkədə həyata keçirilən islahatlar elektrik təchizatı ilə bağlı müasir infrastrukturun yaradılması istiqamətində mühüm nailiyyətlərin əldə olunması üçün əlverişli şərait yaradıb. Aparılan təhlillər göstərir ki, respublikanın ərazilərinin inkişaf sürəti və istehlakçıların elektrik enerjisinə olan tələbatının artım dinamikası şəbəkənin texniki imkanlarından daha yüksəkdir. Şəbəkənin aktivlərinin uzun müddət ərzində istismar edilməsi, onların fiziki və mənəvi cəhətdən aşınma səviyyəsinin yüksək olması, ələlxüsus, son illərdə bölgələrdə aparılan genişmiqyaslı yenidənqurma işləri, sənaye, tibb, ticarət, turizm və müxtəlif təyinatlı obyektlərin tikintisi nəticəsində güc artımının yüksək həddə çatması bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri edir.

Bu gün Azərbaycan dövləti möhkəm təməl üzərində qurulub. Bu təməl tarixə, xalqımızın əsrlər boyu yaratdığı dəyərlərə söykənir. Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, məqsədyönlü siyasəti ilə Azərbaycan artıq dünya birliyində söz sahibinə çevrilib. Azərbaycan heç kimin diktəsi ilə yox, yalnız öz yolu ilə irəliyə doğru addımlayır. Bu yol müstəqillik, milli ləyaqət, inkişaf, tərəqqi yoludur və hər bir qurum bu yolda öz üzərinə düşən vəzifəni dəyərləndirməlidir. Yeni həddəflərə doğru addımlayan Azərbaycanın uğurlu yoluna işıq saçan "Azərişıq" ASC isə Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkə ərazisində istehlakçıları keyfiyyətli, etibarlı və səmərəli şəkildə elektrik enerjisi ilə təmin edir, dövlət başçısının etimadını yüksək səviyyədə doğruldur.

Bəxtiyar ƏZİZLİ,
"Azərbaycan"